**Azərbaycanın milli iqtisadi inkişaf modeli bir sıra cəhətlərinə görə müəyyən üstünlükləri ilə seçilir. Bu modelin üstün tərəflərindən biri də onun sərbəst inkişaf etməyə qadir olmasıdır. Respublikamızda daxili investisiyalar artıq xarici sərmayə qoyuluşlarını üstələyir, qlobal layihələr dövlət büdcəsi hesabına reallaşdırılır. Zəngin təbii sərvətlərə malik olması ölkə iqtisadiyyatının sərbəst inkişaf imkanlarını təmin edir. Azərbaycanda təbii sərvətlərin çoxluğu və müxtəlifliyi, respublikanın son dərəcə əlverişli coğrafi mövqeyi, əhalinin yüksək təbii artımı, məşğulluq siyasətinin səmərəli təmin edilməsi milli iqtisadiyyatın hərtərəfli inkişafını zəruri edir. Azərbaycanın qlobal böhrandan maksimum az itki ilə çıxan ölkələrdən olması, həm də ölkəmizin müstəqil iqtisadi siyasət yeritməsi ilə şərtlənir. Azərbaycanın yeni mərhələdə iqtisadi inkişaf strategiyasının uğurlu olmasını şərtləndirən başlıca faktorlardan biri indiyə qədər həyata keçirilən bu kursun effektivliyidir.**



# Uğurlu milli iqtisadi inkişaf modeli

Bu ilin altı ayı bir daha onu göstərir ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr icra olunur. "Əlbəttə ki, bütün bu işlərin görülməsi üçün iqtisadiyyat əsasdır. İqtisadi müstəqillik əldə edilmişdir və biz məhz buna görə siyasi müstəqillik əldə etmişik, beynəlxalq müstəvidə müstəqillik əldə etmişik. Heç kim bizim iradəmizə təsir edə bilməz, heç kim bizə heç nəyi diktə edə bilməz, heç kimdən asılı deyilik və əminəm ki, heç vaxt heç kimdən asılı olmayacağıq. Asılı olsaydıq, Qarabağ bu günə qədər işğal altında idi". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 15-də bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə deyib. Dövlət başçısı vurğulayıb ki, ona görə iqtisadi müstəqillik əsas amillərdən biridir və burada da böyük nailiyyətlər var.

Azərbaycan üçün xarakterik olan keyfiyyət göstəricilərindən biri qlobal kataklizmlərin baş verdiyi və dərinləşdiyi həssas dönəmlərdə belə, öz yolu ilə irəliyə doğru inamla addımlamasıdır. Xüsusən bütün dünyada iqtisadi geriləmənin yaşandığı və hər bir dövlət üçün sınaq dövrü olan dövrlərdə Azərbaycan bütün böhranlardan layiqincə çıxıb və həyata keçirilən islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bunu pandemiya dövrünün reallıqları da təsdiq edir. Dünyanı cənginə almış koronavirus Azərbaycanda da problemlərə yol açsa da, Prezident İlham Əliyevin təşəbbüsləri, göstəriş və tapşırıqları, fərman və sərəncamları, ən əsası şəxsi nəzarəti ilə həyata keçirilən tədbirlərin nəticəsi olaraq infeksiyanın daha ciddi fəsadlara yol açmasının qarşısı uğurla alındı. Belə bir həssas dönəmdə dövlətimizin təqdir olunan başqa bir addımı isə heç bir sosial layihəni təxirə salmaması, o cümlədən regional inkişafa xidmət edən infrastruktur layihələrin icrasının davam etdirilməsidir.

Koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycan önləyici tədbirlər almaqla çox nümunəvi bir təcrübə əldə etməyi bacarıb, dünyanın bir sıra inkişaf etmiş ölkələri ilə müqayisədə Azərbaycanda daha ciddi uğurlar əldə olunub. Bu günə qədər Azərbaycan bu virusun təhlükəli həddə yayılması və total xarakter almasının qarşısını ala bilib. Nəzərə alsaq ki, koronavirus təkcə pandemiya hadisəsi deyil, eyni zamanda, hər bir dövlətin sosial-iqtisadi, mənəvi, humanitar sferalarına dərindən təsir edən bir faktora çevrilib, o zaman, əlbəttə ki, bir sıra ölkələr ən müxtəlif çağırışlarla üz-üzə qalmalı olurlar. Çünki uzun müddət sosial fərdlərin aktiv fəaliyyətinin qarşısının alınması, həm də iqtisadi münasibətlərə, milli iqtisadiyyata da mənfi təsir göstərir və qapanmalar iqtisadi fəaliyyəti də məhdudlaşdırır. Azərbaycan Prezidenti qeyd edib ki, biz əvvəlcədən sosial təcrid və sosial məhdudlaşdırmaların iqtisadi fəaliyyətini də məhdudlaşdıracağını bilirdik, buna baxmayaraq seçimimiz Azərbaycan vətəndaşlarının sağlamlığından yana oldu və biz ilk növbədə vətəndaşların təhlükəsizliyini təmin etmək barədə düşündük.

Müasir dövrdə qlobal miqyasda baş verən iqtisadi kataklizmlər bir çox ölkələrin böhran kimi səciyyələndirilən mürəkkəb şəraitlə, tənəzzül və ciddi maliyyə problemləri ilə qarşı-qarşıya qalmasına səbəb olub. Dünyada qida sahəsində yaranmış problemlər getdikcə daha da dərinləşir. Regional proseslər, iqlim dəyişikliyi, torpaq və su resurslarının daha da məhdudlaşması qlobal ərzaq təhlükəsizliyinin təmini üçün təhdidlər yaradır. Bu halda ərzaq təhlükəsizliyinin davamlı olaraq möhkəmləndirilməsi Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin əsas prioritetlərindəndir. Bu strateji məsələ daim diqqətdə saxlanılır və ərzaq ehtiyatlarına xüsusi önəm verilir. Dünyada neqativ meyillərin baş verdiyi, koronavirus infeksiyasının geniş yayıldığı dövrlərdə də qabaqlayıcı və sistemli tədbirlər nəticəsində ölkədə istehsal-tədarük-istehlak zəncirində heç bir fasilə müşahidə edilməyib, ərzaq məhsullarının çeşidində və istehlakçıların təminatında hər hansı qırılmalar olmayıb. Bütün bunlar isə ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsi istiqamətində aparılan düzgün və məqsədyönlü siyasi kursun məntiqi nəticəsidir.

Ölkəmizdə ərzaq və buğda ehtiyatları əhalinin tələbatını qarşılayacaq səviyyədədir. Bunu Kənd Təsərrüfatı Nazirliyinin rəsmiləri də bildirirlər. Xaricdən buğda idxal etdiyimiz ölkələrdə müvəqqəti qadağalar tətbiq edilməsi əvvəllər də yaşanıb. Bu qadağa ölkədə istifadə edilən ərzaqlıq buğda və başqa qida məhsulları ilə də bağlı ola bilər. Digər tərəfdən, Ukraynada aparılan hərbi əməliyyatlar ərzaq buğdasına olan tələbatı daha da artırıb. Azərbaycan özünü tam şəkildə yerli ərzaqlıq buğda ilə təmin edə bilmir, bu sahədə əhalinin buğdaya olan tələbatının müəyyən hissəsini xaricdən, xüsusilə Ukraynadan, Rusiyadan, Qazaxıstandan və s. ölkələrdən idxal edir. Digər ölkələr kimi, Azərbaycan da bununla əlaqədar qabaqlayıcı tədbirlər görməlidir və görür. Prezident İlham Əliyev bu ilin 6 ayının yekunlarına həsr edilən müşavirədə bu məsələni xüsusi qabardaraq dedi ki, ölkədə ərzaq buğdasına olan tələbat ödənilməlidir. O, həm də qeyd etdi ki, bu il heç vaxt istifadə olunmayan təqribən 100 min hektarda taxıl, yəni buğda, arpa, dənli bitkilər əkiləcək. Bu da bizim ərzaq təhlükəsizliyimizi gücləndirəcək. Prezident İlham Əliyev bundan əvvəl keçirdiyi görüşlərdə də bildirmişdi ki, tək əkin sahələrinin həcmini deyil, hər hektardan məhsuldarlığını artırmaq hesabına da ərzaqlıq buğdaya olan tələbat ödənməlidir.

Hazırda, dövlət başçısı tərəfindən Azərbaycanda ərzaqlıq buğdanın istehsalını artırmaq qarşıya vəzifə olaraq qoyulub. Onu da qeyd edək ki, ölkəmizdə taxıl istehsalı tələbatın 60 faizini təşkil edir, ərzaqlıq buğda ilə isə özümüzü hələ ki, cəmi 25% təmin edirik. Bu rəqəmin ən azı 70-75%-ə çatdırılması qarşıya məqsəd qoyulub. Dövlət başçısı deyib ki, buna nail olmaq üçün həm azad edilmiş torpaqlarda, həm də ölkəmizin digər yerlərində potensial və imkanlar var. Bunun üçün həm bu il, həm də gələn illərdə dövlət investisiya xərcləri artırılmalıdır. Eyni zamanda, sahibkarlara məqsədyönlü, güzəştli kreditlər verilməlidir ki, məhz bu sahə inkişaf etsin. Çünki buğda əsas ərzaq məhsuludur. "Bizim həm coğrafi yerləşməyimiz, iqlimimiz, eyni zamanda, bəzi yerlərdə torpağın keyfiyyəti və şərait imkan vermir ki, biz özümüzü bu gün buğda ilə yüz faiz təmin edək. Ancaq buna çalışmalıyıq və biz azad edilmiş torpaqlarda indi böyük əkin işləri ilə məşğuluq. Təxirəsalınmaz tədbirlər nəticəsində ikinci dəfə əkin aparırıq və bu il haradasa 50 min hektarda əkin aparılacaq", - deyən Azərbaycan Prezidenti bunu çox yaxşı nəticə adlandırıb. Dövlət başçısı yuxarıdakı fikirləri bu il aprelin 12-də cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə söyləyib və vurğulayıb ki, həm azad edilmiş torpaqlarda, həm də bütün başqa yerlərdə məhsuldarlığı artıra biləcək tədbirlərə əlavə vəsait ayrılmalıdır.

İqtisadiyyatın digər sahələri kimi, aqrar sahənin daha da inkişafı üçün dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir. Kənd təsərrüfatının müxtəlif sahələrinin, xüsusilə taxılçılığın inkişafı üçün fermerlərə subsidiya verilir, texnika təminatı ilə bağlı dövlət tərəfindən güzəştlər tətbiq edilir. Bütün dünya ölkələrində, qlobal səviyyədə ərzaq təhlükəsziliyi ilə bağlı çağırışlar mövcuddur.

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 2022-ci il 19 iyul tarixində "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərman imzalanmışdır. Sənədə əsasən, ilkin mərhələdə pilot layihə olaraq, Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya 2023-cü ildən başlayaraq 5 il müddətində məhsul subsidiyası tətbiq ediləcək. Fərmanla bir sıra dövlət qurumlarına tapşırıqlar verilib, habelə, Nazirlər Kabinetinə ərzaqlıq buğdanın istehsal xərclərini (maya dəyərini) və istehsalçının mümkün qazancını nəzərə almaqla, bu il avqustun 1-dək, növbəti illərdə isə iyulun 1-dək ərzaqlıq buğdanın dövlət tədarük qiymətini müəyyən etmək tapşırılıb. Sənəd fermerləri daha çox istehsala stimullaşdırmaqla istehlak bazarında tarazlığın qorunub saxlanmasına xüsusi dəstək olacaq.

*Azərbaycan üçün xarakterik olan keyfiyyət göstəricilərindən biri qlobal kataklizmlərin baş verdiyi və dərinləşdiyi həssas dönəmlərdə belə, öz yolu ilə inamla irəli addımlamasıdır*



Ekspertlər qeyd edirlər ki, 2023-cü ildə dünyada ərzaq böhranının daha da dərinləşəcəyi gözlənilir. Bu isə yerli fermerlərin daha yaxşı dəstəklənməsi və preventiv tədbirlərin sayının artırılmasını prioritetləşdirmişdi. Bu kontekstdən, məhsula görə subsidiya fermerin əməyini qiymətləndirmək üçün ən yaxşı üsullardan biridir. Artıq daha çox yerli ərzaq istehsalı güclü ərzaq təhlükəsizliyi anlamına gəlməkdədir Fərman subsidiya mexanizminin daha da təkmilləşdirilməsinə xidmət etməklə yanaşı, daha çox məhsul yetişdirən fermerin dövlətdən daha çox pul almasına imkan yaradacaq. Bu qaydalar yerli istehsalı stimullaşdırmaqla, idxaldan asılılığın azaldılmasına xidmət edəcək. Qlobal ərzaq böhranının dərinləşməsi fonunda yerli ərzaq istehsalının artırılması aktuallaşıb. İşğaldan azad olunan ərazilərimizin taxıl və ərzaq istehsalı baxımından böyük potensialı var. Bu da ərzaqla özünütəminata xüsusi töhfə verəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**